# "Multikulturalizm və Azərbaycan" mövzusunda maraqlı tədbir

**Respublikamız özünün inkişafının yeni, daha sürətli, özünəməxsusluğu ilə seçilən unikal bir dövrünə qədəm qoyub. Ölkənin bütün sahələrinin bərabər, proporsional inkişafını təmin etmək məqsədilə ölkə başçısının təşəbbüsü ilə hər il bir strateji sahənin ili elan edilməklə həmin sahənin inkişafı diqqət mərkəzinə çəkilir. Buradakı mövcud problemlərinin aradan qaldırılması, müasir dövrün tələbləri səviyyəsində yenidən qurulması məsələlərinə xüsusi önəm verilir.Sənaye, kənd təsərrüfatı illərinin ardınca mənəvi dəyərlərin xüsusi önəm kəsb etdiyi hazırki dönəmdə multikulturalizm amillərinin ön planda yer alması heç də təsadüfi deyil. Bu gün dünyada terror, islamafobiya, rassizm kimi insanlığa və cəmiyyətlərə yabançı olan aşınmaya məruz qalmış, mürtəce olan məfkurələrin sürətlə ölkələri bir-birinin ardınca öz caynağına aldığı bir vaxtda multikulturalizm dəyərlərinə diqqət və önəm respublikamızda uzaqgörən dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir.**



Ümummilli lider Heydər Əliyev hələ uzun illər əvvəl Azərbaycanda hakimiyyətdə olarkən gənclərimizi keçmiş SSRİ-nin müxtəlif regionlarına ali təhsil almağa göndərərkən və respublikamızın ali və orta ixtisas məktəblərində xarici ölkə vətəndaşlarının təhsil almalarına şərait yaratmaqla multikultural dəyərlərin sintezinə, inteqrasiyasına, qarşılıqlı anlaşma və dostluq münasibətlərinin ön plana çəkilməsinə öz samballı tövhəsini vermişdir.

Respublikamız müstəqillik qazandıqdan sonra isə o, bu mühüm sahəni dövlət siyasətinin ən mühüm tərkib hissəsinə çevrilməklə ölkədə dayanıqlı sabitliyə, milli birliyə , qarşılıqlı anlaşmaya, çoxmillətli olmağa yönəlik bir xəttinin nəzər diqqətdə saxlamağa çalışmışdır. Onun layiqli davamçısı möhtərəm prezidentimiz İ.Əliyev tərəfindən ardıcıllıqla və müvəffəqiyyətlə davam etdirilməkdədir.

Noyabrın 30-da paytaxtımızın Nəsimi rayonundakı 14 saylı tam orta məktəbdə keçirilən tədbir də bu mənada xüsusi əhəmiyyət kəsb edirdi.

"Multikulturalizm və Azərbaycan" mövzusunda keçirilən tədbirə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov və digər fəxri qonaqların qatılması da multikultural dəyərlərə verilən xüsusi önəmin bariz ifadəsi idi. Tədbir məktəbin ümummilli lider Heydər Əliyevin portreti, təhsil, müəllim haqqındakı aforizmə çevrilmiş deyimlərinin əks olunduğu plakatlarla, çiçəklərlə xüsusi zövqlə, tərtibat veriləcək bəzədilmiş akt zalında keçirilmişdir. Tədbirə fəxri qonaqlar, həmçinin respublikamızın bir sıra təşkilatları , o cümlədən tanınmış ziyalılar, rayon məktəblərinin nümayəndələri, valideynlər dəvət almışdı.

Nəsimi RİH başçısı Asif Əsgərov və qonaqların məktəbə gəlişi foyedəki foto-stendlərlə tanışlıqdan başlandı. Burada ümummilli lider H.Əliyev, dövlət başçısı İ.Əliyev, H.Əliyev fondunun Prezidenti Mehriban Əliyevanın görüşlərini əks etdirən fotolar xüsusi maraq doğururdu. Sonra qonaqlar şagird, müəllim və valideynlərlə dolu akt zalına daxil oldular.

Səhnədə iki sırada düzülmüş məktəblilərin ifasında Azərbaycan Respublikasının himni səslənir.- Hamı ayağa qalxır.



Sonra tədbiri giriş sözü ilə məktəbin direktoru Hürzad Verdizadə açır. Qonaqları təqdim edir. Bu tədbirin RİH-nin təşəbbüsü ilə 2016-cı ilin ölkədə multikulturalizm ili elan edilməsi münasibətilə keçirildiyini bildirdi. Multikuturalizmin Azərbaycan xalqının ən qiymətli mənəvi dəyərlərindən biri olduğunu qeyd edərək tədbirin iki hissədən - rəsmi və bədii hissədən ibarət olduğunu bildirdi: Və çıxış üçün ilk sözü məktəbin tarix müəllimi Qurban Qurbanova verdi. Öz çıxışında multikulturalizm və onun tarixi, meydana gəlməsi və 1970 -ci ildə ilk dəfə olaraq bu terminin işlənməsindən, mənasının müxtəlif millətlərin bir arada yaşaması demək olduğundan danışdı. "Multikulturalizm və Azərbaycan" mövzusunda o, danışarkən respublikamızın doqquz ali məktəbində bu fənnin tədris edildiyini bildirdi. Multikultural mədəniyyətə yiyələnməyin zərurətindən söhbət etdi.

" Azərbaycanda multikulturalizm və tolerantlıq" mövzusunda məktəbin dil və ədəbiyyat müəllimi Məryəm Davudova çıxış etdi. Bütün millətlərin, dinlərin, irqlərin Azərbaycanda bərabər, qarşılıqlı anlaşma şəraitində yaşamasının bu gün qanlı savaş meydanına çevrilən dünya üçün əsil nümunə olduğunu xüsusi vurğuladı. Bu dəyərlərin respublikamızda dərin köklərinin olması ilə bağlı dinləyiciləri məlumatlandırdı. Özünün ləzgi olduğunu, ləzgilərin respublikamızda "Samur" qəzetinin olmasını, baş redaktorunun əməkdar jurnalist Sədaqət Kərimova olduğunu, ləzgi mədəniyyətinin digər xalqlarla bərabər inkişaf etdiyini bir nümunə kimi iştirakçılara xatırlatdı.

Məktəbin müəllimi Ləman Abbasova "Multikulturalizm və adətənənələrimiz", Natalya İsmayılova "Multikulturalizm və dünya", Gülnarə Şamilova "Multrkulturalizm və insan hüquqları", "Multikulturalizm-birgə yaşayışın ən ali forması və Azərbaycanda həyat tərzi" mövzusunda məruzələri dinlənildi və alqışlarla qarşılandı. Sonuncu məsələ barəsində məktəbin müəllimi Gülşən Əhmədli danışdı. Məsələ ilə bağlı şagirdlər də çıxış etdilər.

Bədii hissə məktəbin şagirdləri Cavidan və Leyla Cavadovların "Uzundərə" rəqsi ilə başlandı.

Onların ardınca isə VI "C" sinif şagirdi G.Həsənova "Yaxşılıq dünyanı xilas edəcək" şerini ifa etdi.

Daha sonra Nemət Tağıyev, Fidan Qiyaslının və başqalarının ifasında şeir və mahnılar səsləndirilir.

Sonda bütün iştirakçılar yallı gedərək səhnəyə daxil olurlar.

RİH başçısı Asif Əsgərov tədbirdə yekun nitqi ilə çıxış etdi. Tədbirdən məmnun qaldığını bildirdi. Təkcə Nəsimi rayonunda üç dini icmanın yerləşdiyini dilə gətirdi.

Dövlət başçısının gördüyü böyük həcmli məsələlərə diqqət çəkdi. Azərbaycan dövlətçiliyinin etibarlı əllərdə olduğu fikrini bir daha tədbir iştirakçıları ilə bölüşdü. Multikuturalizmlə bağlı tədbirlərin ilin sonunadək rayonda davamlı olaraq keçiriləcəyini də diqqətə çatdırdı. Öz çıxışını ulu öndərin "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" sözləri ilə yekunlaşdırdı.

Sonda RİH-nin başçısı A.Əsgərov səhnədə uşaqlarla şəkil çəkdirmişdir.

**Tahir Abdulov**